**İİV** – İnsanın İmmunçatışmazlığı Virusu
Bu virus insanın qanında xəstəliklərə qarşı müqavimət göstərən immun sistemini zəiflədir, hətta yox edir.
**QİÇS** – Qazanılmış İmmunçatışmazlığı Sindromu

## İİV infeksiyasına yoluxub-yoluxmamağı ekspress-testdən keçməklə müəyyən etmək olar.

İİV infeksiyası diaqnostikasının ən sadə və tez bir zamanda nəticəsi əldə olunan metodu ekspress-testdir. Müəyinə pulsuz və anonimdir.

Ekspress-test müayinəsi yeməkdən asılı olmayaraq, günün istənilən vaxtı aparıla bilər.

### Ekspress-testin əsas üstünlükləri aşağıdakılardır:

***Sadəlik*** – test praktiki olaraq bütün mümkün şəraitdə istifadə oluna bilər və əlavə avadanlıq tələb etmir. Əsas odur ki, barmaqdan bir damcı qan götürülür.

***Etibarlılıq*** – immunoloji müayinə üsuluna əsaslandığı üçün ekspress müayinə etibarlı hesab edilir. Qanda antigen və anticisimlərin aşkar olunması İİV-ə yoluxmanın göstəricisi (nəticəsi) hesab olunur.

***Təhlükəsizlik*** – testin tərkibində heç bir aktiv maddələr və viruslar yoxdur. Heç bir halda testlərdən yoluxmaq mümkün deyil.

### İİV-ə yoluxma yolları:

**Yoluxmuş qan vasitəsi ilə**

*Qeyri-steril tibbi alətlərdən istifadə etməklə*

*Tatuaj, pirsinq zamanı qeyri-steril alətlərdən istifadə etməklə*

*Yoxlanılmamış donor qanı və orqanların köçürülməsi ilə*

*Başqasının üzqırxanı, diş fırçası və ya manikür dəsti istifadə olunduqda*

**Cinsi əlaqə zamanı**

*Qorunmamış (prezervativsiz) cinsi əlaqə zamanı*

**İİV-ə yoluxmuş anadan uşağa**

*Ana bətnində yoluxma, doğuş zamanı, ana südü ilə qidalanma* nəticəsində

## Pulsuz müayinədən keç!!!

Azərbaycanda İİV/QİÇS-lə bağlı fəaliyyət göstərən 44 Könüllü Müayinə və Məsləhət məntəqələrinə müraciət edən hər bir şəxs ekspress-test müayinəsindən keçə bilər. Burada müayinədən əvvəl və müayinədən sonra məsləhətləşmələr aparılır, İİV infeksiyası və ondan qorunma haqqında məlumat verilir, informasiya materialları və qoruyucu vasitələr paylanılır.

Bütün müayinə və məsləhətlər anonim, pulsuz və məxfidir.

**Hər cür yardım və məsləhət (tibbi, psixoloji) almaq üçün müraciət edin:**



Respublika QİÇS-lə Mübarizə Mərkəzi

(012) 594 99 24
(saat 9:00-dan 18:00-dək)

**Qaynar xətt:**
(012) 408 79 74 (saat 9:00-dan 21:00-dək)
www.aids.az

Bakı, AZ1122, H.Zərdabi küç., 96
Tel: 431-60-88, Faks: 430-52-85
office@isim.az www.isim.az

Buklet "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Səhiyyə Nazirliyinin Tədbirlər Planının 19-cu bəndinə uyğun olaraq İctimai Səhiyyə və İslahatlar Mərkəzi və Respublika QİÇS-lə Mübarizə Mərkəzi tərəfindən hazırlanmışdır.

# Məndə İİV varmı? Bunu necə yoxlayım?



# Bu ünvanlarda yerləşən Könüllü Müayinə və Məsləhət məntəqələrində pulsuz və anonim qaydada İİV-ə tibbi müayinədən keçmək olar:

| | | |
|---|---|---|
| 1 | Respublika QİÇS-lə Mübarizə Mərkəzi | Respublika QİÇS-lə Mübarizə Mərkəzi |
| 2 | Bakı İİV-diaqnostika laboratoriyası | Respublika Gigiyena və Epidemiologiya Mərkəzi, Bakı şəh., Azər Manaflı küçəsi, 22 |
| 3 | Naxçıvan MR QİÇS-lə Mübarizə və Profilaktika Mərkəzi | Naxçıvan MR, Naxçıvan şəh., Nizami küçəsi, 53 |
| 4 | Naxçıvan MR Şərur Rayon Mərkəzi Xəstəxanası | Naxçıvan MR, Şərur şəh., Seyidov küçəsi, bina 5 |
| 5 | Sumqayıt İİV-diaqnostika laboratoriyası | Sumqayıt şəh., 26-cı məhəllə, Natəvan küçəsi, 30 |
| 6 | Şirvan İİV-diaqnostika laboratoriyası | Şirvan Şəhər Mərkəzi Xəstəxanası, Şirvan şəh., H.Əliyev prospekti, 16 |
| 7 | Mingəçevir İİV-diaqnostika laboratoriyası | Mingəçevir Şəhər Mərkəzi Xəstəxanası, Mingəçevir şəh., 20 yanvar küçəsi, 12 |
| 8 | Gəncə İİV-diaqnostika laboratoriyası | 3 nömrəli Şəhər Poliklinikası, Gəncə şəh., Gülüstan qəsəbəsi, 27 |
| 9 | Quba İİV-diaqnostika laboratoriyası | Quba Rayon Mərkəzi Xəstəxanası, Quba şəh., Fətəlixan küçəsi, 12 |
| 10 | Yevlax İİV-diaqnostika laboratoriyası | Yevlax Rayon Mərkəzi Xəstəxanası, Yevlax şəh., Ç.Mustafayev küçəsi, 104 |
| 11 | Şəki İİV-diaqnostika laboratoriyası | Şəki Rayon Mərkəzi Xəstəxanası, Şəki şəh., M.Rəsulzadə küçəsi, 164 |
| 12 | Lənkəran İİV-diaqnostika laboratoriyası | Lənkəran Rayon Mərkəzi Xəstəxanası, Lənkəran şəh., Nizami küçəsi, 67 |
| 13 | Şamaxı İİV-diaqnostika laboratoriyası | Şamaxı Rayon Mərkəzi Xəstəxanasının Poliklinika şöbəsi, Şamaxı şəh., Qədirli küçəsi, 61 |
| 14 | Salyan İİV-diaqnostika laboratoriyası | Salyan Rayon Mərkəzi Xəstəxanası, Salyan rayonu, Kürqaraqaşlı kəndi |
| 15 | Respublika Narkoloji Mərkəzi | Bakı şəh., Zığ şosesi, 13 |
| 16 | Şəhər Dəri-Zöhrəvi Dispanseri | Bakı şəh., Təbriz Xəlilrza küçəsi, 17 |
| 17 | Respublika Dəri-Zöhrəvi Dispanseri | Bakı şəh., Bül-bül prospekti, 61 |
| 18 | Şəhər Narkoloji Dispanseri | Bakı şəh., Şərifzadə küçəsi, 79 |
| 19 | Zaqatala Rayon Mərkəzi Xəstəxanası | Zaqatala şəh., Vidadi küçəsi, 32 |
| 20 | Gəncə şəhəri 2 nömrəli şəhər poliklinikası | Gəncə şəh., Zərdabi küçəsi, 224 |
| 21 | Cəlilabad Rayon Mərkəzi Xəstəxanası | Cəlilabad şəh., Mehdi Hüseyn küçəsi, 1 |
| 22 | Şabran Rayon Mərkəzi Xəstəxanası | Şabran şəh., H.Əliyev prospekti, 97 |
| 23 | Hacıqabul Rayon Mərkəzi Xəstəxanası | Hacıqabul şəh., B.M.Litvinçuk küçəsi, 8 |
| 24 | Qazax Rayon Mərkəzi Xəstəxanasının Doğum Evi | Qazax şəh., H.Əliyev prospektı, 172 |
| 25 | Şəmkir Rayon Mərkəzi Xəstəxanasının Konsultativ poliklinika şöbəsi | Şəmkir şəh., Sabir küçəsi, 19 |
| 26 | Ağstafa Rayon Mərkəzi Xəstəxanasının Poliklinika şöbəsi | Ağstafa şəh., H.Əliyev prospektı, 50 |
| 27 | Masallı Rayon Mərkəzi Xəstəxanası | Masallı şəh., Fizuli küçəsi, 100 |
| 28 | Astara Rayon Mərkəzi Xəstəxanası | Astara şəh., M.Cavadzadə küçəsi, 1 |
| 29 | Göyçay Rayon Mərkəzi Xəstəxanası | Göyçay şəh., M.Rəsulzadə küçəsi, 213 |
| 30 | Respublika Perinatal Mərkəzi | Bakı şəh., Y.Səfərov küçəsi, 12 |
| 31 | Sumqayıt Rayonlararası Narkoloji Dispanseri | Sumqayıt şəh., Azərbaycan prospekti, 3, məhəllə 19 |
| 32 | 4 nömrəli Vərəm Əleyhinə Dispanser | Bakı şəh., Elşən Süleymanov küçəsi, 25/14 |
| 33 | Sabirabad Rayon Mərkəzi Xəstəxanası | Sabirabad şəh., H.Əliyev prospekti, 97 |
| 34 | İmişli Rayon Mərkəzi Xəstəxanası | İmişli şəh., Əzizbəyov küçəsi, 3 |
| 35 | Goranboy Rayon Mərkəzi Xəstəxanası | Goranboy şəh., V.Bayramov küçəsi, 116 |
| 36 | Bərdə Rayon Mərkəzi Xəstəxanası | Bərdə şəh., N.Nərimanov küçəsi, 2 |
| 37 | Zərdab rayon Mərkəzi Xəstəxanası | Zərdab şəh., Azərbaycan küçəsi, 49 |